*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 yanvar 2020-ci il № 3 (2421) Qiyməti 30 qəpik

# Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib

*Yanvarın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib. Müşavirədə giriş və yekun nitqi söyləyən dövlətimizin başçısı 2019-cu il ərzində ölkəmizdə və beynəlxalq arenada görülən işlər barədə fikirlərini bildirib. Ölkə başçısı qeyd edib ki, bütövlükdə 2019-cu il ölkəmiz üçün uğurlu il olub. İlin əvvəlində qarşıya qoyulan bütün vəzifələr uğurla icra edilib, ölkəmizin dayanıqlı inkişafı təmin olunub. Ümumilikdə, həm siyasi, həm iqtisadi, həm də sosial sahələrdə böyük uğurlar əldə edilib. Prezident İlham Əliyev onu bildirib ki, 2020-ci il də 2019-cu il kimi ölkəmiz üçün uğurlu olacaq.*



- Bir sözlə, artıq bu gün aparılan müzakirələr həm keçən il görülmüş işlərə yekun vurur, eyni zamanda, bu il görüləcək işlərlə bağlı açıq-aydın mənzərə formalaşır. Əminəm ki, bu il də uğurlu olacaqdır.

Bir məsələyə də münasibət bildirmək istərdim. Son vaxtlar siz də bunu görürsünüz, Ermənistanın baş naziri öz ölkəsinin dırnaqarası uğurları haqqında danışarkən Ermənistanı Azərbaycanla müqayisə edir. Onun gəldiyi qənaətə görə, Ermənistan Azərbaycanı bir çox parametrlər üzrə qabaqlayır. Bəri başdan bildirirəm və bunu heç sübut etməyə ehtiyac yoxdur ki, belə bir fərziyyənin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır. Bunu təsdiqləmək üçün, sadəcə olaraq, bir neçə hadisəni və bir neçə rəqəmi səsləndirmək istərdim.

Bildiyiniz kimi, Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Yəni, bu, özlüyündə böyük bir göstəricidir. Birinci növbədə, ona görə ki, biz ilk dəfə bu böyük, şərəfli missiyaya nail olduq və o vaxt müstəqilliyimizin cəmi 20 yaşı tamam olmuşdu. Digər tərəfdən, bu, Azərbaycanın beynəlxalq nüfuzuna bilavasitə dəlalət edən amillərdən biri idi. Çünki dünya birliyinin mütləq əksəriyyəti bizə inandı, bizə etimad göstərdi və bizə öz səsini vermişdi. Bu hadisə ilə bağlı mən əvvəlki dövrlərdə kifayət qədər geniş məlumat vermişdim. Amma bir məsələ həmişə diqqətdən kənarda qalır, bir çoxları bunu bilmir. Həqiqət isə ondan ibarətdir ki, 2011-ci ildə bizdən əvvəl Ermənistan da öz namizədliyini vermişdi. Ancaq biz namizədliyi verəndən sonra onlar götür-qoy etdilər və gördülər ki, bizimlə rəqabətdə onlar 100 faiz uduzacaqlar, çox sakitcə, qorxaqcasına öz namizədliyini geri götürdülər. Çünki bilirdilər ki, BMT-də biz onlara böyük fərqlə qalib gələcəyik və beləliklə, onlar rüsvay olacaqlar. Yəni, bu, 9 il bundan əvvəl baş vermiş hadisədir və onu göstərir ki, beynəlxalq müstəvidə Ermənistanın və Azərbaycanın hörməti və çəkisi nə dərəcədə fərqlənir. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz bizim böyük siyasi və diplomatik qələbəmizdir və eyni zamanda, Ermənistan üzərində böyük qələbə idi.

2016-cı ildə Ermənistan dinc Azərbaycan əhalisinə qarşı hərbi təxribat törədib və bu təxribat nəticəsində bir neçə dinc vətəndaş həlak olub. Onların arasında uşaqlar da olub. Azərbaycan buna cavab olaraq uğurlu əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini, minlərlə hektar torpağı işğalçılardan azad etdi və o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu, bizim hərbi qələbəmiz idi. Növbəti hərbi qələbə 2018-ci ildə təmin edilmişdir. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 mindən çox hektar ərazi işğalçılardan, erməni silahlı qüvvələrindən təmizləndi və bir neçə önəmli strateji yüksəklik azad edildi. Bu yüksəkliklər imkan verir ki, biz Ermənistanın strateji kommunikasiyalarına tam nəzarət edə bilək. Bu, bizim ikinci hərbi qələbəmiz idi.

Dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci, Ermənistan isə 96-cı yerdədir. O cümlədən hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir. Mənbə "Global Firepower 2019" hesabatıdır.

İndi əsas makroiqtisadi göstəricilərə diqqət yetirirəm. Beləliklə, 2019-cu ildə Azərbaycanın ümumi daxili məhsulu dollar ekvivalentində 47,6 milyard dollardır, Ermənistanda isə cəmi 13 milyard dollar. Alıcılıq qabiliyyətinə görə Azərbaycan 187 milyard dollar daxili məhsula sahibdir, Ermənistan 33 milyard, fərq 5,6 dəfədir. Adambaşına düşən ümumi daxili məhsul Azərbaycanda 4800 dollar, Ermənistanda 4500 dollardır. Alıcılıq qabiliyyətinə görə adambaşına düşən ümumi daxili məhsul Azərbaycanda 18 min 600 dollar, Ermənistanda 11 min dollardır. Valyuta ehtiyatları Azərbaycanda 51 milyard dollar, Ermənistanda 2 milyard dollardır, fərq 25 dəfədir. Xarici ticarət dövriyyəsi Azərbaycanda 33,6 milyard, Ermənistanda 7,4 milyard dollardır, fərq 4,5 dəfədir. İxrac - Azərbaycan 19,6 milyard, Ermənistan 2,4 milyard, fərq 8,1 dəfədir. Müsbət saldo Azərbaycanda 6 milyard dollar, Ermənistanda mənfi saldo 2,6 milyard dollardır. Sərmayə qoyuluşu - keçən il Azərbaycana 13,5 milyard dollar qoyulubdur, Ermənistana 900 milyon, fərq 15 dəfədir. Xarici dövlət borcu - Azərbaycanın xarici dövlət borcu 7,9 milyard dollar, Ermənistanın 6 milyard dollardır. Azərbaycanda xarici dövlət borcu ümumi daxili məhsulun 17 faizini təşkil edir, Ermənistanda 40 faizdən çoxdur. Valyuta ehtiyatları Azərbaycanda xarici dövlət borcundan 6,4 dəfə çoxdur, Ermənistanda xarici dövlət borcu valyuta ehtiyatlarından 2,3 dəfə çoxdur. Adambaşına düşən xarici borc Azərbaycanda 799 dollar, Ermənistanda 1900 dollardır.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirə keçirilib



(Əvvəli 1-ci səhifədə)

Əməkhaqları və pensiyalara dair məlumatı təqdim edirəm. Beləliklə, 2019-cu ilin dekabr ayında Azərbaycanda orta əməkhaqqı 723 manat - bu, 425 dollar təşkil edir, Ermənistanda 369 dollar. Alıcılıq qabiliyyətinə görə orta əməkhaqqı üzrə Azərbaycan MDB-də ikinci, Ermənistan doqquzuncu yerdədir. Minimum pensiya Azərbaycanda 200 manat, yəni 118 dollar, Ermənistanda 55 dollardır. Minimum pensiyaya görə Azərbaycan MDB-də ikinci, Ermənistan doqquzuncu yerdədir. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB-də birinci, Ermənistan onuncu, yəni axırıncı yerdədir. Orta pensiya Azərbaycanda 262 manat, yəni 154 dollar, Ermənistanda 84 dollardır. MDB-də orta pensiyaya görə Azərbaycan dördüncü, Ermənistan səkkizinci yerdədir. Orta pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB-də ikinci, Ermənistan axırıncı - onuncu yerdədir. Yoxsulluq səviyyəsi Azərbaycanda 4,8 faiz, Ermənistanda 24 faizdir, fərq beş dəfədir. Şəhid ailələrinə və müharibə əlillərinə 2019-cu ildə Azərbaycanda 934 mənzil verilibdir, Ermənistanda sıfır. Bütövlükdə Azərbaycanda bu kateqoriyadan olan insanlara 7590 mənzil verilib, Ermənistanda, bildiyimə görə, belə proqram mövcud deyil. Təkcə keçən il bu kateqoriyadan olan insanlara 600 avtomobil verilib, Ermənistanda sıfır. Bütövlükdə bu kateqoriyadan olan insanlara 6750 avtomobil verilib, Ermənistanda sıfır.

Keçirik Davos Ümumdünya İqtisadi Forumunun qlobal rəqabətlilik hesabatına. Beləliklə, 2019-cu ildəki bəzi rəqəmləri təqdim etmək istərdim. İqtidarın uzunmüddətli strategiyasına görə Azərbaycan dünyada onuncu, Ermənistan 59-cu yerdədir. İqtidarın siyasi sabitliyi təmin etməsi - Azərbaycan 11-ci, Ermənistan 58-ci yerdədir. Məhkəmə azadlığı - Azərbaycan 39-cu, Ermənistan 67-ci yerdədir. Polis orqanlarına etimad - Azərbaycan 30-cu, Ermənistan 44-cü yerdədir. Yolların keyfiyyəti - Azərbaycan 27-ci, Ermənistan 91-ci yerdədir. Dəmir yolu xidmətlərinin səmərəliliyi - Azərbaycan dünya miqyasında 11-ci, Ermənistan 67-ci yerdədir. Hava yolları xidmətlərinin səmərəliliyi - Azərbaycan 12-ci, Ermənistan 67-ci yerdədir. İnternet istifadəçilərinin sayına, yəni əhali üzrə payına görə faizlə Azərbaycan 43-cü, Ermənistan 77-ci yerdədir. Əhali arasında rəqəmsal biliklər üzrə Azərbaycan 19-cu, Ermənistan 50-ci yerdədir. Ümumi daxili məhsul, alıcılıq qabiliyyəti pariteti üzrə Azərbaycan 69-cu, Ermənistan 120-ci yerdədir.

İndi keçirik, idman sahəsinə. Azərbaycan 2019-cu ildə dünya və Avropa çempionatlarında 775 medal qazanıb, onlardan 271-i qızıl medaldır. Ermənistan cəmi 222 medal qazanıb, onlardan 61-i qızıldır. 2019-cu ildə II Avropa Oyunlarında Azərbaycan 28 medal qazanıb, Ermənistan 11 medal. 2019-cu ildə keçirilmiş güləş üzrə Avropa çempionatında Azərbaycan 13 medal qazanıb, o cümlədən 4 qızıl, Ermənistan 3 medal qazanıb, bir qızıl.

Keçirik intellektual idman növü olan şahmatda əldə edilən nəticələrə. 2019-cu ildə Avropa çempionatında səkkiz yaşlı şahmatçılar arasında Dinarə Hüseynova qızıl medal qazanaraq Avropa çempionu olmuşdur, Səadət Bəşirli və Yusif Kərimli bürünc medal qazanmışlar. On dörd yaşlı şahmatçılar arasında Ayan Allahverdiyeva Avropa çempionu olmuşdur. Qadınlardan ibarət milli komandamız Avropa çempionatında Ermənistana qalib gələrək bürünc medal qazanmışdır. Gənclərin dünya çempionatında on dörd yaşlılar arasında Aydın Süleymanlı dünya çempionu olmuşdur. Teymur Rəcəbov isə dünya kubokunun sahibi olmuşdur. 2016-cı il Rio Olimpiya Oyunlarında Azərbaycan 18 medal qazanıb, Ermənistan cəmi 4 medal. Medalların sayına görə Azərbaycan 14-cü yeri tutubdur.

Digər önəmli bir məsələ ondan ibarətdir ki, Azərbaycan faşizmin qəhrəmanlaşdırılmasına qarşı ardıcıl mübarizə aparır, Ermənistan isə faşistləri qəhrəmanlaşdırır. Faşist cəlladı olan Njdeyə İrəvanın mərkəzində 6 metrlik abidə ucaldılıb. Bu qanlı cinayətkar SMERŞ tərəfindən həbs edilib, 25 il məhkum edilib, həbsxanada ölüb və reabilitasiya olunmayıb. Belə bir adamın şərəfinə İrəvanda abidə qoyulur və Ermənistanın baş naziri bu cəlladı Soljenitsın və Molotovla eyniləşdirir. Njdenin məşhur kəlamı var: Almaniya uğrunda ölən Ermənistan uğrunda ölür və o, bunu İkinci Dünya müharibəsi zamanı demişdi. Bu, artıq onun mənfur xislətini əks etdirən ifadədir. Ona görə bu sahədə də Azərbaycan həqiqətin tərəfindədir, Ermənistan isə şər qüvvələrin tərəfindədir.

Nüfuzlu "News & World Report" mətbu orqanı tərəfindən aparılmış təhlilə əsasən dünyanın ən güclü ölkələrinin siyahısı müəyyən edilmişdir. Siyahıda cəmi 80 ölkənin adı var və Azərbaycan bu siyahıda güclü ölkələr arasında 45-ci yerdədir. Ermənistanın isə ümumiyyətlə, adı belə yoxdur. İqtisadi inkişafın templərinə görə isə bizim yerimiz dünya miqyasında 35-cidir.

Azərbaycan dünya əhəmiyyətli nəhəng layihələr icra edir. Onların arasında Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum, TANAP qaz kəmərləri var. Cənub Qaz Dəhlizi bu il istismara veriləcək. Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib və bu yol vasitəsilə yükdaşımaların həcmi ildən-ilə artır. Bakı-Tbilisi-Qars Şərq-Qərb nəqliyyat dəhlizinin tərkib hissəsidir. Biz bu layihəni qonşu ölkələrlə - Türkiyə və Gürcüstan ilə uğurla icra etdik. Digər qonşularımızla - Rusiya və İran ilə Şimal-Cənub nəqliyyat dəhlizi üzrə işlər uğurla gedir və demək olar ki, bu dəhliz fəaliyyət göstərir. Sadəcə olaraq, bu dəhlizi daha da səmərəli etmək üçün növbəti addımlar atılır. Bu nəhəng enerji və nəqliyyat layihələri Ermənistandan yan keçib. Bu, bizim qonşularımızdır, eyni zamanda, Rusiya istisna olmaqla, Ermənistanın da qonşularıdır. Yəni, biz qonşularla dostluq, əməkdaşlıq, səmimiyyət əsasında münasibətləri qurmuşuq və məhz buna görə bu layihələrə nail olmuşuq. Ermənistan isə əsrlər boyu qonşulara xor gözlə baxır, qonşulardan nəsə qoparmaq istəyir, onların torpağına iddia edir, tarixi saxtalaşdırır, tarixi abidələri saxtalaşdırır və özününküləşdirməyə cəhd edir. Fərq bundan ibarətdir.

Ermənistanı bu enerji və nəqliyyat layihələrindən biz təcrid etmişik və bunu heç vaxt gizlətməmişik. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz Ermənistanı regionda bizim iştirakımızla reallaşdırılan bütün önəmli layihələrdən təcrid edəcəyik və biz buna nail olduq, həmişə olduğu kimi sözümüzə sadiq qaldıq. Ermənistan bu gün bizim səylərimiz nəticəsində siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanıdır. Torpaqlarımızdan çıxmayana qədər bu vəziyyət belə də qalacaq. Beləliklə, Ermənistan rəhbərliyi növbəti dəfə saxta məlumat əsasında Ermənistanı Azərbaycanla müqayisə etmək istəsə, yaxşı fikirləşsin. Çünki idman dili ilə desək, Azərbaycan ali liqada, Ermənistan isə üçüncü liqadadır və getdikcə bu fərq daha da böyüyəcək.

Bilirsiniz, əvvəllər mən Azərbaycanı heç bir ölkə ilə heç vaxt müqayisə etməmişəm. Biz işimizi kimisə qabaqlamaq üçün görmürük. Biz işimizi Azərbaycan xalqı, dövləti naminə görürük, sadəcə olaraq, Ermənistanın növbəti yalanlarını ifşa etmək üçün məcbur olub, bu müqayisəli təhlili sizə və Azərbaycan xalqına təqdim etdim. Özü də mənim gətirdiyim rəqəmlər həqiqəti əks etdirir, Ermənistanın gətirdiyi rəqəmlər növbəti əfsanədir, növbəti yalandır.

İndi 2020-ci il başlayıb, uğurla başlayıb. Deyə bilərəm ki, bir neçə gün bundan əvvəl Bakıda iki böyük investorla iki layihə imzalanıb, İcra Müqaviləsi imzalanıb. Bu, bərpa olunan enerji növlərinin yaradılması istiqamətində çox önəmli addımdır. İki böyük elektrik stansiyası tikiləcək - biri külək, biri Günəş. Bu hadisənin önəmi ondadır ki, vəsaiti investorlar qoyacaqlar. Yəni, bu, bizə göstərilən inamdır, Azərbaycanın uzunmüddətli inkişafına göstərilən dəstəkdir. İki stansiyanın istehsal gücü 440 meqavat olacaqdır. Bu, çox böyük stansiyalardır, regionda ən böyük Günəş və külək elektrik stansiyalarıdır. Biz özümüz də bərpa olunan enerji növlərini yaradırıq, 50 meqavatlıq stansiya inşa edildi. İndi 84 meqavatlıq stansiyanın layihələndirmə işləri tamamlanır, bunu da biz edəcəyik. Bizim enerji balansımızda bərpa olunan enerjinin payı hazırda təqribən 17-18 faizdir. Bizim uzunmüddətli strategiyamıza görə, biz bunu ən azı 30 faizə çatdırmalıyıq. Onu da bildirməliyəm ki, müsabiqədə 9 şirkət iştirak etmişdir. Yəni, özü də 9 ən böyük şirkət Azərbaycana bərpa olunan enerjini istehsal etmək üçün vəsait qoymağa hazırdır. Sadəcə olaraq, iki şirkət seçildi, hansıların ki, şərtləri daha yaxşı idi. Ancaq o demək deyil ki, qalan şirkətlər kənarda qaldılar, biz onları da dəvət edirik. Qoy, onlar öz təkliflərinə bir daha baxsınlar, şərtləri bizim üçün, ölkəmiz üçün daha məqbul etsinlər və buyursunlar, onlar üçün Azərbaycanda kifayət qədər yer var. Allaha şükür, Azərbaycan həm Günəşlə, həm küləklə zəngin ölkədir, müasir enerji infrastrukturu var. Yenə də Davosun hesabatında enerjinin əlçatanlığına görə Azərbaycan dünyada ikinci yerdədir. İxracımız da var, keçən il 60 milyon dollardan çox ixrac etmişik. Ona görə əminəm ki, bərpa olunan enerji növlərinin yaradılması bizim üçün növbəti prioritet sahə olacaq. Nazirlər Kabinetinə tapşırıram ki, müsabiqədə iştirak etmiş şirkətlərin təkliflərinə baxılsın, onlar dəvət olunsun, onlarla fərdi qaydada danışıqlar aparılsın və onlar da oxşar layihəni Azərbaycanda icra etsin.

Bir sözlə, əminəm ki, bu il Azərbaycan uğurla inkişaf edəcək. 2020-ci ildə Azərbaycan daha güclü dövlətə çevriləcək. Sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri: Azərbaycan Ordusunun sərəncamında olan silahlar düşmən üzərində qələbəni tam təmin etməyə imkan verir

*Yanvarın 11-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəislərinin iştirakı, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birlik, birləşmə komandirləri və digər məsul zabitlərin də cəlb olunması ilə xidməti müşavirə keçirilib.*





Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb, döyüş hazırlığının daha da yüksəldilməsi məqsədilə cari ildə müxtəlif səviyyələrdə döyüş atışlı təlim və praktiki məşqlərin sayının və effektivliyinin artırılmasını əmr edib.

Nazir döyüş hazırlığını təmin edən müxtəlif ixtisaslı hərbi qulluqçuların peşəkar hazırlığının keyfiyyətli təşkili məqsədilə müvafiq təlim-maddi bazanın təkmilləşdirilməsi, bu kateqoriyadan olanlarla mütəmadi toplantıların keçirilməsi, qoşunların davamlı və dayanıqlı idarə olunmasının vəziyyətini müəyyən etmək üçün hərbi hissələrdə qəfil yoxlamaların əmr və direktivlərə uyğun aparılmasını, eləcə də şəxsi heyətin təlim-tərbiyəsinin, nizam-intizamının daim nəzarətdə saxlanılmasını tələb edib.

Cəbhədəki mövcud əməliyyat şəraitini təhlil edən Müdafiə naziri Əlahiddə Ümumqoşun Ordunun və düşmənlə təmas xəttində yerləşən digər hərbi hissələrin döyüş qabiliyyətini yüksək qiymətləndirərək cari ildə də bu istiqamətdə görüləcək tədbirlərin əhəmiyyətini xüsusi vurğulayıb. Azərbaycan Ordusunun sərəncamında olan silahların düşmən üzərində qələbəni tam təmin etməyə imkan verdiyini qeyd edən nazir Ermənistan silahlı qüvvələrinin bölmələrinin ehtimal olunan aktivliyinin qarşısının dərhal və daha üstün silahların tətbiq edilməsi ilə alınması məqsədilə adekvat tədbirlərin görülməsini tapşırıb.

Müdafiə naziri qış mövsümü ilə əlaqədar əsgər yataqxanaları və digər obyektlərin qızdırılmasının təmin olunması, hərbi qulluqçular, o cümlədən gənc əsgərlərin daim tibbi nəzarətdə saxlanılması məqsədilə profilaktiki tədbirlərin görülməsi və şəxsi heyətin məişət şəraitinə xüsusi diqqət yetirilməsi ilə bağlı müvafiq vəzifəli şəxslərə tapşırıqlar verib.

Ötən ildə hərbi qulluqçuların xidməti fəaliyyətinin və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə xeyli sayda hərbi obyektlərin istifadəyə verildiyini, bu işlərin cari ildə də davam etdiriləcəyini nəzərə çatdıran Müdafiə naziri Ali Baş Komandanın tapşırığına əsasən, 2021-ci il də daxil olmaqla, Azərbaycan Ordusunun bütün infrastrukturunun yenilənməsi prosesinin tam başa çatdırılacağını bildirib.

Müşavirənin sonunda Müdafiə naziri 20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncamın tələblərindən irəli gələn tapşırıqların icrası ilə əlaqədar hərbi hissələrdə keçiriləcək tədbirlərlə bağlı müvafiq göstərişlər verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Maddi-Texniki Təminat Baş İdarəsinin yeni ərzaq anbarlarının açılışı olub

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, şəxsi heyətin təchizat, təminat və sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə hərbi hissə və obyektlərdə tikinti işləri davam etdirilir.*



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Maddi-Texniki Təminat Baş İdarəsinin yeni ərzaq anbarlarının açılışında iştirak ediblər.

Müdafiə nazirinə inzibati və texniki ərazilərdə mövcud olan tikililər və inkişaf planı haqqında məlumat verilib.

Bildirilib ki, burada quru ərzaq məhsullarının saxlanılması üçün soyuducu sistemlərlə təchiz olunmuş hər biri 500 tonluq bir neçə yeni anbar inşa edilib.

Bundan başqa Müdafiə nazirinə cəbhəboyu zonaya yaxın ərazilərdə də ərzaq anbarlarının tikintisinin davam etdirilməsi barədə məruzə edilib.

Müdafiə naziri Azərbaycan Ordusunun şəxsi heyətinin ilboyu təzə və yüksək kalorili qida ilə təmin olunması, hərbi hissələrin ərzaq təminatına nəzarətin gücləndirilməsi, ərzaq məhsullarının daha keyfiyyətli saxlanılması və hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

## "Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı sənədlərinin tələbləri yerinə yetirilməlidir"

BMT, Avropa İttifaqı və digər beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdikləri sənədlərin tələbləri yerinə yetirilməlidir. AZƏRTAC xəbər verir ki, bunu Almaniya Bundestaqının deputatı Olaf Gutting ölkədəki onlayn platformaya müsahibəsində bildirib. O qeyd edib ki, münaqişə ilə bağlı status-kvo qəbuledilməzdir və problem sülh yolu ilə həll olunmalıdır.

Xatırladaq ki, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizi beynəlxalq hüquq normalarına zidd olaraq işğal edilib. İşğal nəticəsində 1 milyondan çox azərbaycanlı öz doğma yurdlarından didərgin düşüb.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***13 yanvar 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***14 yanvar 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Bakı Qarnizonunda intizamın vəziyyəti təhlil edilib





Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzində 2019-cu ilin yekunlarına dair Bakı Qarnizonunda intizamın vəziyyətinin təhlilinə həsr olunmuş müşavirə keçirilib. Tədbirdə qarnizonda yerləşən hərbi hissələrin komandirləri, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin rəhbərləri və digər vəzifəli şəxslər iştirak ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müşavirədə Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev ötən ildə qarnizon ərazisində görülən işlər, əldə olunmuş uğurlar barədə çıxış edib və 2020-ci ildə döyüş hazırlığının yüksəldilməsi, eləcə də təlim-tədris prosesinin lazımi səviyyədə təşkil olunması barədə müvafiq tapşırıqları vəzifəli şəxslərə çatdırıb.

*Döyüş hazırlığı*

# "Məqsədimiz qələbə qazanmaqdır"

*Döyüş hazırlığının yüksək səviyyədə saxlanması Müdafiə Nazirliyi rəhbərliyinin daim diqqət mərkəzindədir. İstər düşmənə qarşı mübarizədə, istər torpaqlarımızın təhlükəsizliyinin təmin edilməsində, istərsə də birbaşa döyüş meydanında şəxsi heyətin müsbət nəticələr əldə etməsi döyüş hazırlığından bilavasitə asılıdır. Ordunun əldə etdiyi uğurların arxasında mütəmadi keçirilən döyüş hazırlığı dərsləri, təlimlər və səhra çıxışları dayanır. Bütün bunlar mürəkkəb əməliyyat şəraitində zabit və əsgərlərin təcrübi bacarığının və mənəvi-psixoloji dözümlülüyünün formalaşmasına yardımçı olur.*

Təlim meydançasında atəş hazırlığı dərsini izlədikdən sonra bir daha əmin olduq ki, "N" hərbi hissəsinin rəhbərliyi də tabeçiliyində olan şəxsi heyətin bilik, bacarıq və hərbi vərdişlərə yiyələnməsinə xüsusi diqqət ayırır. Zabit Rail Ağayev söhbət zamanı bildirdi ki, döyüş meydanında hazırlıqlı hərbi qulluqçu daha çox əhəmiyyət daşıyır. "Əsgərlərin istər fiziki, istərsə də mənəvi-psixoloji cəhətdən inkişaf etməsində, hərbi qulluqçu kimi Vətənin müdafiəsinə hazırlanmasında təlimlər, keçirilən məşqlər, döyüş hazırlığı dərsləri mühüm rol oynayır."

Zabit Rail Ağayev ilə birlikdə "Müdafiə olunan düşmən üzərinə şəxsi heyətin dərinlikdən irəliləyərək hücumu" dərsini izlədik. Leytenant Fərid Süleymanlı şəxsi heyətə keçirilən dərsin əhəmiyyətini izah edərək dedi ki, hücum taktiki fəaliyyətin əsas növlərindən biridir. "O düşməni darmadağın etmək, təyin olunmuş obyektləri ələ keçirmək, sonrakı fəaliyyətlərə imkan yaratmaq məqsədilə aparılır. Qarşımızda şərti düşmən mövqeləri dayanır. Şəxsi heyətin qarşısında duran əsas tapşırıq hücum edərək həmin mövqeləri ələ keçirməkdir."

"Qarşınızda dayanan mövqeləri şərti deyil, real düşmən mövqeləri hesab edərək hücuma keçin", - deyə dərs rəhbəri söhbətinə davam etdi. - Hər bir Azərbaycan əsgəri Qarabağı, nə vaxtsa qayıdacaq torpağı yox, həm də şanlı tarixə malik olan keçmişimizin bir parçası, canımızdan ayrılmış bir parça kimi anlamalıdı. Ona görə də biz tarixi torpaqlarımıza qovuşmaq üçün canımız, qanımız bahasına olsa belə çalışmalıyıq. Ağlar qalan anaların, bacıların, yandırılan körpələrin qisasını almaq yolunda tər tökməyi bacaran Azərbaycan əsgəri kimi formalaşmaq hər birinizin mənəvi borcudur. Bizim hər birimizin ən böyük arzusu qələbədi, işğal olunmuş torpaqlarımızın, doğma Qarabağımızın geri qaytarılması, azad olunmasıdı. İnanırıq ki, hazırlıqlı Azərbaycan əsgəri həmin şad günü həsrətlə gözləyən xalqımıza qələbə sevinci bəxş edəcək, Qarabağ həsrətinə son qoyacaq. Torpaqlarımızı azad etmək naminə irəli!



Komandanı eşidən kimi şəxsi heyət dərinlikdən irəliləyərək hücuma keçdi, təyin olunmuş vaxtda başlanğıc nöqtəsindən hərəkətə başladı və sonda şəxsi heyətin qarşısına qoyulan tapşırıq müvəffəqiyyətlə başa çatdı.

Dərs prosesindən sonra şəxsi heyətlə söhbət etmək imkanı qazandıq. Gizir Kənan Hüseynov hesab edir ki, komandiri olduğu heyətin döyüş atışlı təlimdə fərqlənməsinin əsasında təcrübə və vətənpərvərlik duyğusu dayanır. "Bundan başqa təlimdə uğur qazanmağın əsas şərtlərindən biri komandir və əsgərlərin bir-birini tamamlamasıdı. Başlıcası budur ki, əsgərlərin rəğbətini qazanan, onların ehtiyacını duyan, onlara valideyn qayğısı göstərən, şəxsiyyətinə hörmət edən, hərbi təcrübəsini əsgərlərə aşılamağı bacaran komandir tabeçiliyində olanları Qələbəyə kökləyə bilər."

"Bu gün Azərbaycan əsgərinin arzusu xalqımıza Qələbə bəxş etməkdir", - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Şamil İsrafilzadə söhbətə qoşuldu. - Unutmuruq ki, düşmən hələ meydandadı... Unutmuruq ki, ermənilər hansı faciələri törədib... Ancaq düşmən də unutmamalıdır ki, Azərbaycan Ordusu istənilən hücumun qarşısını almağa, düşmənə layiqli cavab verməyə hazırdır. 2016-cı ilin Aprel döyüşləri sübut etdi ki, ordumuz nəyə qadirdir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İlqar Hacıyev qeyd etdi ki, bizim vəzifəmiz Vətənimizə keşik çəkmək və istənilən hərbi tapşırığı layiqincə yerinə yetirməkdir: "Həmin vəzifənin məsuliyyəti olduğunu yaxşı dərk edirik. Arxamızda güclü dövlətin durduğunu hiss edəndə daha mübariz oluruq, torpaqlarımızın işğaldan azad ediləcəyinə inamımız artır. Bütün əsgərlər arzulayırlar ki, torpaqlarımızın düşməndən azad edilməsində öz payı olsun."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İntiqam Məmliyev isə vurğuladı ki, Vətənin başlandığı yer etibarlı, ayıq-sayıqlıqla qorunmalıdır. "Bu yolda istənilən məhrumiyyətlərə sinə gərmək vətəndaşlıq borcumuzdu. Yaxşı bilirik ki, ordumuzun döyüş qabiliyyəti biz əsgərlərin hərtərəfli hərbi hazırlığından keçir. Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması üçün maddi-texniki bazaya malik olan ordunun olması və şəxsi heyətin hərbi təcrübəsinin artması əsas şərtdir. Bizim bundan başqa yolumuz yoxdur. Bizim bir vətəndaş kimi, bir hərbi qulluqçu kimi xalqımızın, dövlətimizin, Ali Baş Komandanımızın qarşısında bir şərəf borcumuz var..."

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan regionun aparıcı ölkəsidir

Çox mühüm geosiyasi məkanda, daim təlatümlü olan bir regionda yerləşən Azərbaycan gərgin anlarda vasitəçi rolunu oynayan aparıcı ölkədir.

Bu fikri AZƏRTAC-a açıqlamasında Geopragma beyin mərkəzinin vitse-prezidenti, deputat Patrisiya Lalonde söyləyib.

Patrisiya Lalonde qeyd edib ki, Azərbaycan "dondurulmuş" adlandırılan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə məruz qalıb. Ümid edirik ki, bu münaqişə tezliklə həllini tapacaq. Həmin münaqişə regionda hər an alovlana biləcək bir təhlükədir.

Geopragma beyin mərkəzinin vitse-prezidenti Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin Fransada fəaliyyət göstərən beyin mərkəzlərinin rəhbərləri ilə görüşündə onları maraqlandıran çoxsaylı suallara cavab tapdıqlarını qeyd edib.

# Gəncənin Şəhidlər xiyabanında Azərbaycanın ərazi bütövlüyü uğrunda itkin düşmüş şəxslərin adları əbədiləşdiriləcək

Gəncənin Şəhidlər xiyabanında Azərbaycanın ərazi bütövlüyü uğrunda itkin düşmüş 92 nəfərin adı əbədiləşdiriləcək.

Bu barədə Gəncə şəhəri, Nizami Rayon Bələdiyyəsinin şöbə müdiri Ələddin Hüseynov AZƏRTAC-ın bölgə müxbirinə məlumat verib.

Bildirilib ki, Gəncə şəhəri, Nizami Rayon Bələdiyyəsinin 4 saylı qəbiristanlığına daxil olan Şəhidlər xiyabanında 376 şəhidin, həmçinin 5 nəfər Azərbaycanın Milli Qəhrəmanının (Ənvər Arazov, Elbrus Allahverdiyev, Şahlar Hüseynov, İqor Makeyev, Pərviz Səmədov) və Gəncənin ilk qadın şəhidi Sevda Cabbarovanın məzarları var. Məzarlardan 49-u isə naməlumdur.

# 20 Yanvar: Tariximizin qanlı və şanlı səhifəsi

*XX yüzillik Azərbaycan xalqının tarixinə ən qanlı hadisələrlə, faciələrlə, misli görünməmiş soyqırımlarla yanaşı, müstəqillik və azadlıq uğrunda mübarizə, hünər və qəhrəmanlıq, milli oyanış və özünüdərk əsri kimi də daxil oldu. Qan yaddaşımıza böyük faciə və qəhrəmanlıq kimi həkk olunan 20 Yanvar müstəqillik əzmimizi, milli kimliyimizi dünyaya tanıdan gün oldu. Bu tarix Azərbaycanın istiqlalı yolunda milli məfkurəmizdən güc alan qarşısıalınmaz azadlıq istəyinin dünyaya bəyan edilməsinin başlanğıcıdır.*

## Ümummilli lider Heydər ƏLİYEV:

*Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.*



1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir. 20 Yanvar qırğını Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mubarizəsini boğmaq, ona mənəvi zərbə vurmaq məqsədi daşıyırdı. Lakin sovet imperiyası insanlıq adına sığmayan əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədi.

Qanlı Yanvar milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına yol açdı. Uzun illər ərzində milli azadlığını bərpa etmək arzusu ilə yaşayan xalqımız nəyə qadir olduğunu sübut etdi. Tarix bir daha göstərdi ki, dövlətçilik ənənələrini yaşadan xalqımızı müstəqilliyi uğrunda mübarizədə qorxutmaq, susdurmaq, dayandırmaq mümkünsüzdür.



Bu gün 30 ili arxada qoyan Qanlı Yanvar hadisələrinin səbəbləri, bu hadisələrin günahkarları, onlara yardım edənlər, verilən yanlış qərarlar və onların törətdikləri ağır fəsadlar, üzləşilən bütün haqsızlıqlara və ədalətsizliklərə baxmayaraq, xalqımızın göstərdiyi böyük qəhrəmanlıq hər bir azərbaycanlını qürurlandırır.

Xalqların tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Lakin çox nadir hallarda bu iki məqam üst-üstə düşür. Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşadı. O müdhiş gecə Azərbaycan xalqı sınağa çəkildi. Həm xalqın öz içində yetişdirdiyi qəhrəmanlar üzə çıxdı, həm də bu faciəni törədənlərə başçılıq edənlərin kimliyi bəlli oldu.

1990-cı il yanvarın 20-də Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycanla bağlı apardığı qərəzli siyasətə, yerli rəhbərliyin xalqımızın mənafeyinə zidd mövqedə durmasına qarşı etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın digər rayonlarına sovet hərbçiləri yeridildi. Dinc əhalinin kütləvi etiraz aksiyaları ağır hərbi texnikanın köməyi ilə vəhşicəsinə dağıdıldı. Bu olanlar süquta uğramaqda olan sovet siyasi sisteminin qorunması cəhdi kimi deyil, həm də azərbaycanlıların tarixi torpaqlarından sıxışdırılıb çıxarılması siyasətinin yeni şəraitdə davamı idi.

20 Yanvar hadisəsi xalqımızın yaddaşına qanlı faciə kimi daxil olsa da, bütövlükdə milli tariximizin ən şanlı və qəhrəmanlıq səhifələrindən birini təşkil edir. Məhz 20 Yanvardan başlayaraq Azərbaycan xalqı SSRİ-nin tərkibində ədaləti bərpa etməyin qeyri-mümkünlüyü və milli haqlarımıza obyektiv yanaşma nümayiş olunacağına öz inamını birdəfəlik itirdi.

Hakimiyyətin mənbəyi saylan və öz hüquqları uğrunda düşüncəsi, fikri, sözü, həmrəyliyi ilə mübarizəyə qalxmış bir xalq 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə öz zəhmli ordusunun tankları, işıq saçan zəhərli gülləleri, xüsusi təyinatlı hərbi dəstələri, pozuculuq-təxribat işlərini təşkil edən çevik qrupları ilə üzləşdi...

Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, yanvarın 22-də Azərbaycan xalqı şəhidləri ilə vidalaşdı. Paytaxt matəm libası geyindi. Respublikada 3 gün matəm elan olundu. Azərbaycanın bütün rayonlarında və Bakıda izdihamlı matəm mitinqləri keçirildi. Matəm mərasimində bir milyondan çox insan iştirak edirdi. Bu, Azərbaycan xalqının azadlıq səsi, haqq, ədalət, demokratiya və müstəqillik uğrunda mübarizə əzmi idi.

20 Yanvar faciəsi törədilən zaman Azərbaycan xalqı ağır iflic vəziyyətinə və informasiya blokadasına salındı, radio, televiziya susduruldu, onun enerji bloku silahlı hərbçilər tərəfindən partladıldı, mətbuatın nəşrinə qadağa qoyuldu. Xalq ağır və dəhşətli faciədən xəbərsiz idi. Xalq bilmirdi ki, 1990-cı il yanvarın 19-da Azərbaycan SSR Ali Sovetinin hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasən, yanvarın 19-dan 20-nə keçən gecədən etibarən Bakı şəhərində fövqəladə vəziyyət elan edilmişdi.

Yanvarın 18-də televiziya ilə çıxış edən SSRİ və Azərbaycan rəhbərliyinin nümayəndələri respublika əhalisini əmin etdilər ki, Bakıda fövqəladə vəziyyət tətbiq edilməyəcək və belə tədbir nəzərdə tutulmayıb. Ancaq bu vaxt DTK-nın diviziyasının və desant hissələrinin Bakıya atılması başa çatmaqda idi.

Fövqəladə vəziyyətin yanvarın 19-dan 20-nə keçən gecə tətbiq edilməsinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən etibarən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirdilər.

Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant qrupları şəhər üzərinə hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Şəhərin küçələri güllələnmiş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq oldu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər...

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirdi, 20 nəfəri ölümcül yaraladılar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürüldü. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirildi.

Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycan rayonlarında 146 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu; hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edildi. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milislər (polislər) də vardı.

O ağır günlərdə ümummilli lider Heydər Əliyev bütün çətinliklərə baxmayaraq, 1990-cı il yanvarın 21-də siyasi iradə nümayiş etdirərək Moskvadakı Azərbaycan nümayəndəliyinə gəldi və SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edərək bəyanatla çıxış etdi...

1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra 1990-cı ilin Qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Ulu Öndər sonradan o günləri xatırlayarkən deyirdi: "Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi".



Xalqımız bu mübariz oğul və qızlarının şücaətini daim yüksək qiymətləndirir, onların ruhuna ehtiram göstərir, xatirəsini hər zaman uca tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 Yanvar faciəsinin 30 illiyinin qeyd olunması haqqında imzaladığı Sərəncam bunun əyani sübutudur.

Xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz olan yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan Vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

## General-mayor Həzi Aslanov - 110

# Sərkərdə ömrü



**Ümummilli lider Heydər ƏLİYEV:**

*Həzi Aslanov Böyük Vətən müharibəsində mərdliklə döyüşən Azərbaycan xalqının nümayəndələrindən ən görkəmlisidir.*

*XX əsrin ən dəhşətli və dağıdıcı müharibələrindən sayılan İkinci Dünya müharibəsində faşizmə qarşı mübarizədə və qələbənin qazanılmasında xalqımızın müstəsna xidmətləri olub. Bu müharibənin tərkib hissəsi olan Böyük Vətən müharibəsi cəbhələrində Azərbaycanın igid oğul və qızları elə ilk gündən silaha sarılıb böyük hünər və rəşadət göstərərək, adlarını şanlı hərb tariximizin səhifələrinə qızıl hərflərlə həkk ediblər.*

Böyük Vətən müharibəsi illərində yüzlərlə azərbaycanlı hərbçi öz sərkərdəlik istedadını nümayiş etdirib; onlardan 12 nəfəri diviziya komandiri, 37 nəfəri briqada və alay komandiri, 9 nəfəri isə divizion komandiri vəzifələrinə yüksələrək, general və admiral hərbi rütbələrinə layiq görülüblər. Qanlı-qadalı müharibə cəbhələrində şöhrət qazanmış azərbaycanlı qəhrəmanlardan danışarkən dərhal gözlərimiz önündə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun surəti canlanır.

Azərbaycan xalqı, dövlətimiz ağır müharibə cəbhələrində şanlı döyüş yolu keçən sərkərdə oğullarını unutmur, onların adları daim əbədiləşdirilir.

Xatırladaq ki, ötən ilin 29 dekabr tarixində Prezident İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun anadan olmasının 110 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzaladı. Sərəncamda bildirilir: "Dünyanın faşizmdən qurtulması uğrunda ağır döyüşlərdə Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirmiş və hərb salnaməsində yeni parlaq səhifələr açmışdır. Onun göstərdiyi misilsiz şücaət və başçılıq etdiyi tank alayının müstəsna rəşadəti torpaqlarımızın işğaldan azad edilməsinə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyəti üçün əsl qəhrəmanlıq nümunəsidir."

Həzi Əhəd oğlu Aslanov 1910-cu il yanvarın 22-də Lənkəran şəhərində anadan olub. Həzi ibtidai təhsilini də elə bu şəhərdə alır. 13 yaşında atasını itirən Həzi kərpic zavodunda işləməyə başlayır. O, savadını artırmaq üçün kursu bitirib Lənkəran şəhər məktəblərinin birində pioner baş dəstə rəhbəri işləyir. 1924-cü ilin oktyabrında Bakıya - Zaqafqaziya hərbi hazırlıq məktəbinə göndərilir.

1929-cu ilin avqustunda Bakıya qayıtdıqdan sonra Həzi Zaqafqaziya Hərbi Dairəsi Hərbi Şurasının əmri ilə Borisoqlevski-Leninqrad süvari məktəbində təhsilini davam etdirir. Orduda komandir olmaq arzusu Həzinin varlığına hakim kəsilmişdi. Bununla yanaşı, o yaxşı bilirdi ki, məqsədinə çatmaq üçün gərgin zəhmət, möhkəm iradə tələb olunur. Beləliklə, hərb sənətinə bütün varlığı ilə bağlanan Həzi döyüş texnikası ilə daima yaxından maraqlanırdı. Çalışırdı ki, hərbi texnikaların incəliklərini və üstünlüklərini daha dərindən öyrənsin.

Həzi iki illik ali hərbi təhsilindən sonra Kotovski adına 3-cü Bessarabiya süvari diviziyasında vzvod (taqım) komandiri kimi fəaliyyətə başlayır. 1930-cu ilin əvvəllərində o, Lənkərana gəlir və Xavər adlı xanımla nişanlanır. 1933-cü ildə ailə həyatı quran Həzinin Tofiq və Arif adlı iki oğul övladı dünyaya göz açır.

1938-ci ildə Həzi Aslanov Ukraynanın Kiyev şəhərində hərbi xidmətini davam etdirirdi. Burada o özünü bacarıqlı bir komandir kimi göstərir. Elə həmin ildə Kotovski adına 3-cü Bessarabiya süvari diviziya məktəbinin rəisi vəzifəsinə təyin edilir. 1939-cu ildə Sovet-Fin müharibəsi başlayan kimi könüllü olaraq Həzi Aslanov Kareliyaya yollanır və döyüşlərdə böyük rəşadət göstərir. Aslanov bu şanlı döyüşlərdə iştirak edənlərin ön sırasında idi.

Faşist Almaniyası Sovet İttifaqına hücum edərkən Həzi Aslanov Ternopol vilayətində xidmət edirdi. Desant taboruna komandirlik edən Aslanovun döyüşçüləri faşistlərin ilk zərbələrini dəf edib, onlara qarşı igidliklə vuruşurdular.

1941-ci il iyunun 23-nə keçən gecə alman qoşunları ilə qeyri-bərabər döyüşdə Həzi Aslanov tam hazırlıqlı sərkərdə kimi özünün bacarığını göstərir. O, beş ay müddətinə döyüşçüləri ilə birlikdə Donbas ətrafında düşmənin şiddətli hücumlarının qarşısını mərdliklə alır. Həzi Aslanov bu döyüşlərdə özünəməxsus döyüş taktikası işlədərək düşmənin ağır təlafat verməsinə nail olur.

1941-ci ilin dekabrında Moskva ətrafında gedən döyüşlərdə göstərdiyi igidlik, qəhrəmanlıq Həzi Aslanova hərbçi şöhrəti qazandırdı. Xarkov və Stalinqrad ətrafında gedən döyüşlərdə məhz Həzi Aslanovun başçılığı ilə 55-ci tank briqadasının tankçıları düşmənə ağır zərbələr endirdilər.

Həzi Aslanov 55-ci əlahiddə tank alayı ilə feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində böyük məharət göstərmişdir. Onun tankçıları döyüşə-döyüşə 40 km-dən artıq yol gedərək, Stalinqrad ərazisində strateji əhəmiyyətli dəmir yolu xəttini düşməndən geri aldılar. Sovet tankları düşmənin xeyli canlı qüvvəsini və texnikasını sıradan çıxardaraq, almanları Stalinqrad qruplaşmasının əsas magistralından məhrum etdilər. Aslanovçuların Kotelnikovo yaxınlığında gedən döyüşlərdə göstərdikləri böyük şücaətləri nəticəsində düşmənin 30 əks-hücumu dəf edildi. Həzi Aslanovun döyüş taktikası nəticəsində almanların bir batalyon piyada qoşunu, 30 tankı, 50 avtomobili sıradan çıxarıldı.

Stalinqradın azad olunmasında Azərbaycan xalqının yetirdiyi böyük sərkərdə Həzi Aslanovun müstəsna xidmətləri vardır.

Stalinqrad döyüşlərində cinahlardan zərbə ustası kimi şöhrət qazanan böyük sərkərdəmiz özünü müasir hərb elmin zirvələrinə yiyələnən mahir bir komandir kimi göstərdi. Bununla bağlı o yazırdı: "Üzbəüz həmlə nə qədər cəlbedici görünsə də, mən həmişə üstünlüyü düşmənin cinahlarına zərbə endirməyə verirəm. Düşmənin cinahlarını axtarmaq, ona ən zəif yerlərindən zərbə vurmaq asan deyildir, bunun üçün hər bir komandirdən böyük əmək, zirəklik və mətinlik tələb olunur."

Peşəkar hərbçilər müharibə illərində müsahibə verərkən qeyd edirdilər ki, tank hissəsi komandiri Həzi Aslanovun keçirdiyi böyük, həm də uğurlu döyüş əməliyyatları uzun müddət tədqiq və tətbiq edilməlidir.

1942-ci il dekabrın 22-də podpolkovnik Həzi Aslanov Stalinqrad uğrunda göstərdiyi rəşadətli döyüşlərinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Bu barədə SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanında yazılırdı ki, cəbhə komandanlığının döyüş tapşırıqlarını nümunəvi surətdə yerinə yetirdiyinə, qəhrəmanlıq və şücaət göstərdiyinə, ona tabe olan hissələrə bacarıqla və mətanətlə komandanlıq etdiyinə görə Həzi Əhəd oğlu Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verilsin.

Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov daima öz hərbi biliyini artırmağa çalışırdı... O, 1943-cü ilin dekabrın 17-dən 1944-cü ilin yazınadək bir illik təhsil proqramını üç aya mənimsəyir. 1944-cü ilin yazında Həzi Aslanov Moskvaya Zirehli Tank Qoşunları Akademiyasına kursa göndərildi. Tezliklə 13 mart 1944-cü ildə qəhrəman həmyerlimizə tank qoşunları general-mayoru hərbi rütbəsi verildi. Bundan sonra o, yenidən 35-ci qvardiya tank briqadasına qayıtdı. General Həzi Aslanov Volqa çayından başlamış bütün gərgin döyüşlərdə yenidən özünü bacarıqlı, yenilməz sərkərdə kimi göstərdi. O, 1944-cü ilin hücum döyüşləri dövründə 8 dəfə Ali Baş Komandanlıq tərəfindən təşəkkür aldı.

Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun tankçıları Rostov, Taqanroq şəhərlərinin azad olunmasında və Kursk döyüşlərində fəal iştirak edirdilər. 1944-cü ildə isə onun 35-ci qvardiya tank briqadası Belorusiyanın, Pribaltika respublikalarının azad olunmasında xüsusilə fərqləndilər. Artıq briqada belə adlanırdı: 2-ci dərəcəli Suvorov ordenli və Qırmızı bayraqlı 35-ci qvardiya briqadası. Döyüşlərdə göstərdiyi şəxsi igidliyə görə Həzi Aslanov ikinci dəfə "Qırmızı Bayraq" ordeni ilə təltif edildi. General Həzi Aslanovun tank briqadası 23-30 iyun 1944-cü ildə "Baqration" əməliyyatında xüsusilə fərqlənərək Minsk və Borisov şəhərlərini düşməndən azad etdi. 7 iyul 1944-cü ildə 3-cü Belorusiya cəbhəsinin komandanı İvan Daniloviç Çernyaxovski tərəfindən "Baqration" əməliyyatının gedişində şəxsi igidliyinə görə Həzi Aslanov 2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edildi.

General-mayor Həzi Aslanov Belorusiya cəbhəsindəki şücaətinə görə ikinci dəfə yüksək ada təqdim edilsə də, erməni fitnəkarlığı nəticəsində bu təltif yerinə yetirilmədi. Yalnız ölümündən 47 il sonra, 21 iyun 1991-ci ildə tədqiqatçı-jurnalist Musa Bağırovun uzun illər apardığı böyük mübarizəsi, zəhməti və səyləri sayəsində Həzi Aslanova İkinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Stalinqraddan Baltik sahillərinədək döyüş yolu keçən Həzi Aslanov 24 yanvar 1945-ci ildə Litvanın Yelqava şəhəri yaxınlığında ağır yaralandı və hospitala çatdırıldı. Hərbi hospitalda tibb-sanitar xidməti komandiri, mayor Georgi Rafailoviç Beqiaşvili Həzi Aslanova ilkin tibbi yardım göstərdi. Bir gün sonra onun Moskvaya köçürülməsi tapşırılsa da, Azərbaycan xalqının qəhrəman oğlu həyata əbədi gözlərini yumdu...

Qəhrəman sərkərdəmizin cənazəsi 1945-ci il 26 yanvar tarixində təyyarə ilə Bakıya yola salındı. Həmin gün Bakının küçələri izdihamla dolu idi... İnsanlar qəhrəman Həzini son mənzilə yola salmaq üçün Dağüstü parka sarı irəliləyirdilər.

Azərbaycan xalqının şanlı oğlu Həzi Aslanov Böyük Vətən müharibəsi cəbhələrində göstərdiyi şəxsi igidlik və rəşadətinə görə üç dəfə Qırmızı Bayraq ordeni, 2-ci dərəcəli Suvorov ordeni, Aleksandr Nevski, 1-ci dərəcəli Vətən müharibəsi ordeni, iki Qırmızı Ulduz ordeni və saysız medallarla təltif olunmuşdu.

1969-cu ildə Lənkəranda Həzi Aslanovun ev muzeyi açıldı, 1983-cü il mayın 8-də isə Lənkəran şəhərində onun böyük heykəli ucaldıldı. Bakıdakı küçələrdən və metrostansiyalardan birinə Həzi Aslanovun adı verildi. Lənkəran, Bakı və Volqoqradda onun adına məktəblər fəaliyyət göstərir. Dövlət Xəzər Dəniz Gəmiçiliyindəki tankerlərdən biri əfsanəvi qəhrəmanımızın adını daşıyır. Həzi Aslanov haqqında neçə-neçə sənədli və bir bədii film çəkilib, məqalələr, kitablar və romanlar yazılıb.

Xalqımızın ümummilli lideri Heydər Əliyev vaxtilə böyük qürur və fərəh hissi ilə deyirdi: "Həzi Aslanov öz qəhrəmanlıq, cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyada tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərdə, general, həm də vətənpərvər bir insan, Vətəninə sədaqətlə son nəfəsinə qədər döyüşmüş, həlak olmuş həmvətənimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır."

Ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyi dövründə hər il mayın 9-da Həzi Aslanovun məzarını ziyarət edər, onun ailə üzvləri ilə görüşər və bununla da Qələbə günü münasibətilə keçiriləcək tədbirlərə start verilərdi.

Bu gün ulu öndər Heydər Əliyevin müqəddəs irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Böyük Vətən müharibəsi veteranlarına, onların ailələrinə diqqət və qayğısını əsirgəmir.

Hər il 9 May Qələbə Günü Ümummilli Liderimizin ənənəsini davam etdirərək, Prezident İlham Əliyev Şəhidlər xiyabanında müharibə iştirakçıları, veteranları tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önündə onun ailə üzvləri ilə görüşür. Xalqımızın qəhrəman oğlunun xatirəsi hörmət və ehtiram hissi ilə yad edilir.

Şərəfli döyüş yolu keçən tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov heç vaxt yaddaşlardan silinməyəcək, tarix bu adı Vətənə sədaqətli xidmət nümunəsi kimi əbədiyyən yaşadacaqdır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Tabor komandirlərinin toplantısı keçirilir

*Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq tabor, divizion komandirləri və onların müavinləri ilə təlim-metodiki toplantı keçirilir.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantıda zabitlərin bilik və praktiki vərdişləri qiymətləndirilir, həmçinin müasir ümumqoşun döyüşünün aparılması üzrə nəzəri bilikləri yoxlanılır.

Şəxsi heyət rəhbər sənədləri bilmələri üzrə test, atəş, taktiki-xüsusi və fiziki hazırlıq, eləcə də döyüş maşınlarının idarə olunması üzrə məqbullar verir.

*İnsanlar arasında dostluq münasibətindən müqəddəs hiss ola bilməz. İllər keçsə də, hər zaman dostunu xatırlayır, onu görəndə xoşbəxt olursan. Səmimi qəlbdən güvənə biləcəyin, hər anını bölüşə biləcəyin insanı tapmaq asan deyil. Uşaqlıq, məktəb, universitet, əsgərlik illərindən yalnız az sayda dost qazanmaq olur. İstər şad, istərsə də pis günlərində yanında olmaq, sevincinə, dərdinə şərik olmaq hər bir dostun mənəvi borcudur.*

## Əsgər dostluğu

# "Adam gərəkdir dostluqda düz ola"



"N" hərbi hissəsində belə möhkəm və səmimi dostluğun şahidi olduq. Bölmənin zabiti Nurlan Bənnayev tabeliyində xidmət edənlərin arasında səmimi, mehriban münasibətin hökm sürdüyünü dedi: "Xalqımızın yüksək mənəvi dəyərlərindən biri də dostluqdur. Şifahi xalq ədəbiyyatında da dostluğa xitabən deyilən bir çox atalar sözü var. Məsələn, "Örtülü bazar, dostluğu pozar", "Dost dosta tən gərək, tən olmasa gen gərək" və s. Mədəniyyət tariximizin görkəmli nümayəndəsi, dahi bəstəkar, publisist və ictimai xadim Üzeyir Hacıbəyov da öz əsərində dostluğa yüksək qiymət verərək deyib: "Adam gərəkdir dostluqda düz ola". Bu cür yüksək mədəni-mənəvi dəyərlərlə böyüyən gənclərimiz dost olmağın, dostluğun nə olduğunu kiçik yaşlarında dərk edirlər. Ordu sıralarında xidmət edənlərin dostluğu isə daha möhkəm olur. Əsgərlik dostu silah dostu deməkdir. Düşmənlə üzbəüz dayandığın anda yalnız dostuna güvənə bilərsən. Özün qədər güvəndiyin insanla irəli getmək, qarşıdakı düşmənə qalib gəlmək asandı. Biz də çalışırıq ki, əsgərlərimizə sadəcə komandir yox, həm də dost olaq."

Bölmədə hökm sürən dostluq münasibətlərindən danışan zabit bildirdi ki, tabeliyində xidmət edənlərin arasında da bu möhkəm bağ ilə bağlanan əsgərlər çoxdur. Ancaq onlardan ikisinin - əsgərlər Samir Qasımovla Rəfxan Novruzovun adlarını xüsusi vurğulamaq olar. Hər iki əsgərlə həmsöhbət olduq.

- Dost sənin xəzinəndir, - deyə əsgər Samir Qasımov söhbətə başladı.

- Yaşadığımız hər saniyənin bir hökmü var. Nə qədər çox dostun olarsa, bir o qədər çətinlikləri dəf etmək asan olar. Həyatımızın ən gözəl çağlarından bir qismi hərbi xidmətdə keçir. Əsgər yoldaşlarım arasında bir neçə dostum var. Onlardan biri də əsgər Rəfxan Novruzovdur. Onunla tanışlığım səngərdən başlayıb. Böyüklərdən həmişə eşitmişik ki, əsgər dostu ömür dostudur. Bizim dostluğumuz da əbədi olacaq. Biz də harada olmağımızdan asılı olmayaraq, dostunun harayına yetişən dostlardan olacağıq. Asudə vaxtlarımızda Rəfxanla şahmat oynayır, işğal altında olan Vətənimizin dilbər guşələrindən danışırıq. Hərbi mundiri daşıyan, qəlbi Vətən eşqi ilə yanan hər bir azərbaycanlı kimi torpaqlarımızı azad edib, yurdlarından didərgin düşən həmyerlilərimizi el-obalarına qaytaracağımız günü səbirsizliklə gözləyirik. İnanıram ki, həmin günə az qalıb.

Əsgər Rəfxan Novruzov bildirdi ki, dostlar bir-birinə qarşı mehriban olmalı, heç bir halda paxıllıq etməməlidirlər. "Dostluq elə bir münasibətdir ki, ondan nə qədər danışsan azdır. Hər kəs dostundan danışdıqca danışır. Hər kəsə öz dostu əzizdir. Ancaq hər halda dostuna qarşı, ilk növbədə, dürüst olmalısan. Hərbi xidmət dövründə valideynlərimizdən uzaq olsaq da, dostlarımız həmişə yanımızdadır. Dostum hər an mənimlə düşmən üzərinə atılmağa hazırdır. Bundan gözəl nə ola bilər? Arzu edirəm ki, dostlarımla çiyin-çiyinə Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızı azad edib, Şuşada, Laçında, Kəlbəcərdə .... toy-bayram edək".

Vətənin müdafiəsində dayanan belə möhkəm dostlarla tanış olduğum üçün çox sevincliyəm. Onlarla söhbətimiz nəinki Vətənimizə olan məhəbbətlərindən, həm də dostluqlarının əbədi olacağından xəbər verirdi.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət yerlərini özbaşına tərk edənlərin sayı artır. İşğalçı orduda vəziyyət o qədər acınacaqlıdır ki, hətta zabitlər də hərbi hissədən qaçırlar. Bu yaxınlarda 4-cü dağ atıcı taborun iki bölük komandirinin hərbi hissədən qaçdıqları məlum olub.

Kapitan Vahe Mamacanyan və Stepan Avakyan hərbi hissəni özbaşına tərk ediblər. Hər iki zabit keçən ay hərbi hissədə baş verən kütləvi dava zamanı müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu V.Badalyana baş nahiyəsindən ağır xəsarət yetirməkdə ittiham olunur.

Zabitlərin cinayət məsuliyyətinə cəlb olunacaqlarından qorxaraq hərbi hissədən qaçdıqları ehtimal olunur. Zabitlərin tapılaraq geri qaytarılması üzrə tədbirlər davam etdirilir.

Faktla bağlı hərbi polis tərəfindən araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində özbaşınalıq, qanunsuzluq, fiziki və mənəvi təhqirlər səbəbindən qeyri-döyüş şəraitində ölüm hadisələri baş verməkdə davam edir. Bu günlərdə işğalçı ordunun bölmələrindən birində daha bir əsgər müəmmalı şəkildə ölüb.

Ermənistan ordusunun 1-ci dağ atıcı alayının 1-ci taborunun 2-ci bölüyünün əsgəri Rafik Gevorkyanın meyiti tapılıb. Hadisənin dekabrın 22-də saat 16:23 radələrində baş verdiyi bildirilib.

Hadisə ictimaiyyətdən gizlədilsə də, istintaq qrupu hadisə yerində olub. Hərbi qulluqçu R.Gevorkyanın cəsədində müxtəlif dərəcəli yaralar aşkar edildiyindən onun mütəmadi olaraq döyüldüyü və fiziki təhqirlərə məruz qaldığı ehtimal edilir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyədə "Kapan-2" adlı antiterror əməliyyatına başlanılıb



Türkiyənin cənubundakı Hatay əyalətində növbəti genişmiqyaslı antiterror əməliyyatına başlanılıb.

"Kapan-2" ("Tələ-2") adı almış əməliyyatda asayiş keşikçilərinin 585 əməkdaşı, o cümlədən polislər və jandarm qüvvələri cəlb edilib.

Ölkənin Daxili İşlər Nazirliyində bildirilib ki, güc strukturlarının əsas vəzifəsi Amanos dağlıq silsiləsi ərazisindəki PKK terroru təhlükəsinin tam aradan qaldırılmasıdır.

Artıq əməliyyatın ilk saatlarında terrorçuların 3 sığınacağı və anbarı aşkarlanıb, bir ələdəqayırma partlayıcı qurğu məhv edilib.

### "Taliban"ın liderlərindən biri öldürülüb



Əfqanıstanın şimalında "Taliban" hərəkatı birləşmələrinin rəhbərlərindən biri öldürülüb.

Bu barədə "Tolo News" telekanalı məlumat yayıb. Ölkənin Hərbi Hava Qüvvələrinin zərbəsi nəticəsində "Taliban" silahlılarının liderlərindən olan Mahibulla məhv edilib.

Əfqanıstanın Müdafiə Nazirliyindən verilən məlumata görə, o, Pakistan vətəndaşıdır.

### İordaniya Kralı İŞİD-in yenidən baş qaldırdığı barədə xəbərdarlıq edib



İordaniya Kralı II Abdullah bildirib ki, Yaxın Şərqdə İŞİD terrorçuları yenidən baş qaldırıb və təşkilatlanmağa başlayıblar. Kral terrorçuların təkcə Suriyanın şərqində deyil, həm də İraqın qərb bölgələrində fəallaşdıqlarını diqqətə çatdırıb.

Brüssel, Paris və Strasburqa səfəri çərçivəsində "France 24" telekanalına müsahibə verən II Abdullah onu da əlavə edib ki, əvvəllər Suriyada döyüşən terrorçular indi Liviyaya toplaşıblar. O qeyd edib: "Avropaya daha yaxın olan Liviyada baş verənlər çox mühümdür. Suriyanın İdlib şəhərindən minlərlə döyüşçü Liviyaya gedib. Bu, regionda yerləşən mənim ölkəm və Avropa üçün ciddi məsələdir".

ABŞ və İran arasında gərginliyə toxunan II Abdullah bildirib ki, onun ölkəsi yaxın aylarda regionda gərginliyin azalmasının tərəfdarıdır. Onun sözlərinə görə, indi vəziyyətdə yumşalma hiss olunur və İordaniya bunun davam etməsini arzu edir. "Tehranda baş verənlər Bağdad, Amman, Beyrut, İsrail-Fələstin prosesinə də təsir göstərə bilər" -deyə Kral vurğulayıb. O xatırladıb ki, İordaniya Haşimilər Krallığı Suriyadan olan 1,3 milyon qaçqına sığınacaq verib.

### Əfqanıstanda iki ABŞ əsgəri həlak olub



Əfqanıstanın cənubunda partlayış nəticəsində iki ABŞ hərbi qulluqçusu həlak olub, daha iki hərbçi isə yaralanıb.

ABŞ Müdafiə Nazirliyinin məlumatına görə, NATO missiyasının tərkibindəki kontingentin hərbçilərini daşıyan döyüş avtomobili Qəndahar əyalətində yola basdırılmış minaya düşüb. İnsidentin məsuliyyətini "Taliban" hərəkatı üzərinə götürüb.

ABŞ qoşunlarının Əfqanıstanda olduğu müddətdə 2,5 mindən çox Amerika hərbi qulluqçusu həyatını itirib.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

*Əsgərin tribunası*

# Vətənin hər qarış torpağı əzizdir



- Əziz qardaşım, silah yoldaşım. Bildiyin kimi, əsgərlik əsl kişilik, mətinlik, dözümlülük məktəbidir. Bu məktəbdə əlaçı olmaq hər birimizin müqəddəs borcudur. Bunun üçün Vətənimizə layiqli xidmət etməli, komandirlərimizin əmr və göstərişlərini dəqiq və vaxtında yerinə yetirməli, torpaqlarımızı işğaldan azad etməyə hər an hazır olmalıyıq. Bu yolda uğurla addımlamaq üçün hərbin sirlərinə dərindən yiyələnməliyik. Vətənimizin keşiyində dayandığımız hər anın məsuliyyətini dərk etməli, həmin duyğuları yaşamalıyıq. Necə deyərlər, Vətənin əvvəli-axırı olmur. Vətənin hər qarış torpağı əzizdir, dəyərlidir. Düşmənlə üzbəüz mövqedə xidmət etməyimiz bu dəyəri daha da gücləndirir.

Hər fəsildə təbiətin gözəlliyi insanı valeh edir. Yaz aylarında ətraf yaşıllığa, qışda isə ağ örpəyə bürünür. Bir anlıq xalqımızın necə gözəlliklərə sahib olduğunu fikirləşirsən. Ancaq qeyri-ixtiyari düşmənin törətdikləri insanlığa sığmayan vəhşiliklər yadıma düşür. Həsrətlə cəsur oğulların yolunu gözləyən Şuşa, Xocalı... qisasının alınacağı günə səbirsizlənən şəhidlərimizin ruhu da üzərimizə düşən məsuliyyəti xatırladır. Səngərdən əzəli torpaqlarımızı seyr eləmək o qədər çətindir, insan qəzəbini zorla cilovlaya bilir. İnanıram ki, tezliklə Azərbaycan əsgəri qəzəbini düşmənin üzərinə yağdıracaq. O torpaqların bizim olduğu gün kimi aydındı.

Əsgəri xidmətimin çox hissəsini başa vurmuşam. Hərbi hissədə biz əsgərlər üçün hər cür sosial-məişət şəraiti yaradılıb. Komandirlərimiz bizə doğma münasibət bəsləyir, hərbin sirlərini yüksək səviyyədə mənimsəməyimiz üçün əllərindən gələni əsirgəmirlər. Hərbi xidmət mənə çox şey öyrətdi. Bu gün əzizlərimizin rahat yaşamaları biz əsgərlərdən asılıdı. Bunu rəhbər tutaraq döyüş növbətçiliyini ikiqat məsuliyyətlə aparırıq. Əlbəttə, bu yolda biz yalnız deyilik. Bizim arxamızda ordusuna güvənən Azərbaycan xalqı dayanır.

Əziz qardaşım, onu da deyim ki, düşmən olduqca cılız, xam xəyallarla yaşayır. Düşmənin digər xalqlardan mənimsədikləri və üzərində gəzdikləri torpaqlar onlara məxsus deyil. Bizim isə zəngin tariximiz, Mübariz, Samid, Çingiz ... kimi igidlərimiz var. 2016-cı ilin Aprel döyüşlərində və 2018-ci ilin Günnüt zəfərində əsgərlərimizin yazdığı şücaət salnaməsi, qazandığı qələbə bizi ruhlandırır, Böyük Qələbə gününə az qaldığına inamımızı daha da artırır. Bu gün ordumuzun şəxsi heyəti Ali Baş Komandanımızın döyüş əmrini yerinə yetirməyə hazırdır. Bu düşmənə də bəllidir. Arzumdur ki, torpaqlarımızı işğaldan azad edək, Cıdır düzündə at çapım. İnşallah, həmin günə az qalıb.

**Əsgər**
**Röyal MİRZƏYEV,**
**"N" hərbi hissəsi**

# "Şəxsi heyətin formalaşmasında fiziki hazırlıq da zəruridir"



"N" hərbi hissədəyik. Hərbi hissədə şəxsi heyəti ilə birlikdə fiziki hazırlıqla məşğul olan gizir Lütvün Həsənovla həmsöhbət oluruq. "Azərbaycan Ordusunun rəhbərliyinin göstərdiyi diqqət və qayğı nəticəsində burada müasir standartlara uyğun formalaşdırılan idman şəhərciyi hərbi qulluqçularımızın idmanın bütün növləri ilə məşğul olmasına geniş şərait yaradıb", - deyə söhbətə başlayan gizir Lütvün Həsənov idmanın hər bir kəs üçün əhəmiyyətli olduğunu vurğuladı. O bildirdi ki, şəxsi heyətin idmana olan marağının artırılması məqsədilə yarışlar təşkil olunur: "Həmin yarışlarda fərdi və yaxud komanda şəklində yer qazanan hərbi qulluqçularımız mükafatlarla təltif olunurlar. Döyüşdə uğur əldə etmək üçün hərbi qulluqçuların fiziki hazırlıqları yüksək səviyyədə olmalı, onlar verilən tapşırıqları cəld və vaxtında yerinə yetirməli, müəyyən məsafəni qət etməlidirlər. Əsas məqsəd burada döyüşçünün sağlamlığını, iradəsini, dözümlülüyünü yüksəltməkdir. Buna görə də şəxsi heyətlə günün nizam qaydasına uyğun olaraq hər gün fiziki hazırlıq məşğələləri keçirilir".

Gizir Lütvün Həsənovun şəxsi heyətə idmanı vahid komanda şəklində həyata keçirməsi məndə xoş təəssürat yaratdı. Bu oğullar Lələtəpədə, Bayraqtəpədə, Cocuq Mərcanlıda qazanılan uğurları davam etdirəcəklər. Ordumuzu tarixi Qələbəyə daşıyacaqlar. Bunu onların gözlərindən də oxumaq mümkün idi.

İnamımın təsdiqini şəxsi heyətlə olan söhbət zamanı da tapıram. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şirzad Əliyev bildirdi ki, torpaqlarımız uğrunda canından keçməyə hər zaman hazırdır: "Mən və əsgər yoldaşlarımın bir məqsədi var - torpaqlarımızı işğaldan azad etmək və erməniləri tarixi torpaqlarımızdan qovub çıxarmaq. Buna qadir olmaq üçün dözümlü, səbirli, iradəli, güclü olmalıyıq və məqsədimizə çatmaq üçün komandirlərimizin göstərdiyi səy nəticəsində fiziki hazırlıqlarımızın səviyyəsini daim artırmalıyıq. Onların yaddaşlarına həkk etdirməliyik ki, Azərbaycan Ordusu yenilməzdir".

Qisas hissi ilə alışıb-yanan daha bir müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, dəfələrlə boks üzrə respublika çempionu və beynəlxalq yarışların qalibi kiçik çavuş Eldost İbadlı isə bildirdi ki, məktəbdə oxuyanda ermənilərin xalqımıza qarşı insanlıqdan kənar hərəkətlərə yol verdiklərini öyrənib: "Onların bizim dinc sakinlərimizə verdiyi əzabların, körpələrin, qocaların, hamilə qadınların başlarına gətirdiyi işgəncələrin tarixdə analoqu yoxdur. Torpaqlarımız uğrunda canlarından keçən, qəhrəmancasına şəhid olanların qisasını almaq naminə fiziki cəhətdən güclü olmalı idim və buna görə də idmanla məşğul olmaq qərarına gəldim. Hərbi xidmətə gəlməmişdən əvvəl idmanın boks növü ilə məşğul oldum və yüksək nailiyyətlər əldə etdim. Komandirlərimizə minnətdarlığımı bildirirəm ki, bizlərin fiziki və mənəvi-psixoloji cəhətdən hazırlıqlı olması üçün əllərindən gələni əsirgəmirlər".



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ülvi Qurbanov və digər əsgərlər güləş üzrə respublika və ordu birinciliklərinin qalibi Murad Hüseynov, Əli Əlizadə, Nicat Şabanov, Elnur Sadıqov, İntiqam Abbasov da fiziki hazırlığın şəxsi heyətin formalaşmasında böyük əhəmiyyət kəsb etdiyindən söz açdılar və bildirdilər ki, fiziki hazırlıq sağlamlıqdır, insanda iradəni, dözümü, gücü artırmaq üçün əsas vasitədir. Hər bir insanın bədəni sağlam olmalıdır. "Hərbi qulluqçu həm fiziki, həm döyüş hazırlığı baxımından yüksək səviyyədə olmalıdır ki, döyüşdə uğur əldə edə bilsin".

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# İdman

## Sərbəst güləş üzrə kişilərdən ibarət yığmamız Türkiyədə komanda hesabında birinci yeri tutub



İstanbulda keçirilən sərbəst və qadın güləşi üzrə Yaşar Doğunun xatirə turnirinə yekun vurulub.

Ümumilikdə 4 qızıl, 1 gümüş və 6 bürünc medal əldə edən kişilərdən ibarət millimiz komanda hesabında 180 xalla 1-ci yeri tutub.

Sərbəst güləşçilərimizdən Abubakr Abakarov (79 kq), Aslanbek Alborov (92 kq), Camaləddin Məhəmmədov (125 kq) qızıl, İntiqam Vəlizadə (61 kq) gümüş, Hacımurad Hacıyev (74 kq) və Şamil Zubairov (92 kq) isə bürünc medala sahib olub.

Yarışlarda Türkiyə komandası 2-ci, Gürcüstan yığması isə 3-cü olub.

Sonuncu yarış günündə qadın güləşçilərimizdən Tatyana Omelçenko (62 kq) gümüş, onunla eyni çəkidə çıxış edən Elmira Qəmbərova isə bürünc medal qazanıb. Ümumilikdə 1 qızıl, 1 gümüş və 3 bürünc medal qazanan qadınlardan ibarət yığmamız 99 xalla komanda hesabında 2-ci yeri tutub. Türkiyə 1-ci, Bolqarıstan isə 3-cü olub.

## İrina Zaretska Karate 1 Seriya A turnirində gümüş medal qazanıb



Çilinin paytaxtı Santyaqoda keçirilən Karate 1 Seriya A turnirini təmsilçimiz İrina Zaretska (68 kq) medalla başa vurub.

Karateçimiz yarışda Daniele Van Viki (CAR) 9:0, Qalina Melniki (Ukrayna) 3:2, Feryal Abdelazizi (Misir) isə 1:0 hesabı ilə məğlub edərək finala yüksəlib. Həlledici görüşdə İ.Zaretska Silviya Semeraroya (İtaliya) 0:1 hesabla məğlub olaraq gümüş medalla kifayətlənib.

Dünya Karate Federasiyasının (WKF) bu nüfuzlu turnirində 65 ölkədən 466 karateçi iştirak edib. Yarışın hər mərhələsi idmançılara olimpiya reytinq xalları qazandırıb.

## Fuad Cəfərovun xatirəsinə həsr edilən şahmat memorialı başa çatıb



Azərbaycanın tanınmış şahmat məşqçisi, Respublika Şahmat Mərkəzinin ilk direktoru, şahmat turnirlərinin peşəkar təşkilatçısı Fuad Cəfərovun xatirəsinə həsr edilən memorial başa çatıb.

Memorial çərçivəsində blits, rapid, uşaq turnirləri, eləcə də A (qrossmeyster və beynəlxalq usta) və B (Open) qruplarında oyunlar keçirilib.

Ümumi nəticələrə görə, blits yarışında 12,5 xalla İran, A qrupunda 17,5 xalla "Sofiya" komandaları qalib olublar. Yeddi turdan ibarət olan Open turniri yerli şahmatçı Şahin Hüseynovun (6 xal) qələbəsi ilə nəticələnib.

Uşaq turnirində isə 12 yaşlılar arasında Azərbaycan şahmatçıları Tunar Davudov oğlanlar (7 xal), Ayan Hüseynli qızlar (5 xal), 9 yaşlılarda Murad Xəlilzadə oğlanlar (6 xal), Dinarə Hüseynova qızlar (4 xal) arasında qalib olublar.

Turnirin sonuncu günü keçirilən rapid yarışının qalibi 7 turdan 6 xal toplayan Əhməd Əhmədzadə olub. Memorialda Azərbaycan ilə yanaşı, İran, Rusiya, Birləşmiş Ərəb Əmirliklərindən 250 şahmatçı mübarizə aparıb.

Turnirin əsas təşkilatçısı, yarışların baş hakimi, beynəlxalq dərəcəli hakim İlqar Bacarani olub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 4
Nüsxə 4000